**Elnur Qara oğlu ALLAHVERDİYEV**
Azərbaycan Kooperasiya Universitetinin dosenti,
iqtisad üzrə fəlsəfə doktoru

# AZƏRBAYCANDA ORQANİK KƏND TƏSƏRRÜFATINDA DÖVLƏT-ÖZƏL SEKTOR ƏMƏKDAŞLIĞI

**Xülasə**

Tədqiqatın məqsədi – Azərbaycanda orqanik kənd təsərrüfatında dövlət-özəl sektor əməkdaşlığı imkanlarını araşdırmaqdan ibarətdir. Kənd təsərrüfatının inkişaf problemləri açıqlanmış və sistemləşdirilmişdir. Orqanik kənd təsərrüfatının formalaşdırılması və inkişaf etdirilməsində dövlət-özəl sektor mexanizmlərinin səmərəliliyi əsaslandırılmışdır. Qlobal çağırışlar kontekstində Azərbaycanda orqanik kənd təsərrüfatı strukturunun yaradılmasında dövlət-özəl sektor əməkdaşlığı üzrə təkliflər hazırlanmışdır.

Tədqiqatın metodu – olaraq bir sıra elmi metodlardan: təhlil, sintez, müqayisə, proqnozlaşdırma və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Eyni zamanda, ölkəmizin kənd təsərrüfatında dövlət-özəl sektor əməkdaşlığı üzrə aparılan tədqiqatlarda əsaslandırılan metodolji üslublar və mexanizmlər nəzərə alınmışdır.

Tədqiqatın nəticələri – yeni çağırışlar şəraitində alınmış elmi-praktiki nəticələrdən Azərbaycanda orqanik kənd təsərrüfatı modelinin yaradılmasında dövlət-özəl sektor əməkdaşlığı istiqamətində fəaliyyət mexanizminin hazırlanmasında istifadə edilə bilər.

**Açar sözlər**: Azərbaycan, orqanik kənd təsərrüfatı, dövlət-özəl sektor əməkdaşlığı, kənd təsərrüfatının inkişaf problemləri, orqanik kənd təsərrüfatı modeli, kənd təsərrüfatının inkişaf perspektivləri.

**UOT:** 338.43
**JEL:** : Q10; J43; P48
**DOI:** https://doi.org/ 10.54414/HQAF3386

## Giriş

Müasir mərhələdə istənilən ölkənin və onun regionları üçün uzunmüddətli perspektivli sosial-iqtisadi inkişaf strategiyalarının fəal işlənməsi tələb edilir. Dövlət-özəl əməkdaşlığı iqtisadi inkişaf strategiyalarının reallaşdırılması üçün əsas vasitələrdən biri, rəqabətqabiliyyətli iqtisadiyyatın davamlı inkişafı üçün resurs hesab edilə bilər. Dövlət-özəl əməkdaşlıq nisbətən yeni kateqoriyadır və hökumət və özəl sektor arasında xüsusi münasibətləri xarakterizə etmək üçün istifadə olunur. Dövlət-özəl tərəfdaşlıq ilk dəfə 1980-ci illərin sonu - 1990-cı illərin əvvəllərində Böyük Britaniyada tətbiq edilib və bu gün dünyanın bir çox ölkələrində fəaliyyət göstərir. Bu mexanizm kommunal təsərrüfatlarda, yolların tikintisi və istismarında, elektrik şəbəkələrinin, su təchizatı və kanalizasiya sistemlərinin, dəmir yollarının modernləşdirilməsində və s. sahələrdə fəal şəkildə tətbiq olunur. Əgər ilk əvvəllər infrastruktur layihələri əsasən dövlət-özəl əməkdaşlıq layihələri çərçivəsində həyata keçirilirdisə, daha sonra dövlət sektorunda dövlət xidmətlərinin göstərilməsi, innovasiya və elmi-tədqiqat işlərində uğurlu dövlət-özəl əməkdaşlıq təcrübələri yayılmağa başladı. Müasir dövrdə dövlət-özəl əməkdaşlıq mexanizmlərinin kənd təsərrüfatının, xüsusilə orqanik kənd təsərrüfatının inkişafında tətbiqi aktualdır [1, s. 143].

Odur ki, orqanik kənd təsərrüfatının inkişafında dövlət-özəl əməkdaşlığından istifadə imkanlarının öyrənilməsi Azərbaycanda həmin sahənin rəqabət qabiliyyətinin artırılması üçün və ölkə əhalisinin ekoloji baxımdan təmiz ərzaq məhsulları ilə təminatında ən vacib sahə olması ilə əlaqədardır. Kənd təsərrüfatında dövlət-özəl əməkdaşlıq iqtisadi inkişaf üçün nisbətən yeni vasitədir və həmin sahədə dövlət-özəl əməkdaşlığının yaranması şərtlərini təhlil etmək, onun iqtisadi mahiyyətini, formalaşması xüsusiyyətlərini nəzərdən keçirmək lazımdır.

## Azərbaycanda orqanik kənd təsərrüfatında dövlət-özəl sektor əməkdaşlığı imkanlarının tədqiqi

Dövlət-özəl əməkdaşlığı dövlət tərəfindən layihələrin reallaşdırılmasının səmərəliliyini artırmaq üçün istifadə edilə bilən güclü bir vasitədir. Bu mexanizmdən fəal istifadə iqtisadiyyata investisiya qoyuluşunun həcminin artırılmasına, büdcəyə vergi daxilolmalarının artırılmasına, sosial sabitliyin təmin edilməsinə, infrastrukturun müasirləşdirilməsinə və inkişafına, cəmiyyət üçün mal və xidmətlərin keyfiyyətinin yüksəldilməsinə kömək edir [2, s. 95]. Xarici və yerli ədəbiyyatda dövlət və biznes arasında əməkdaşlığın müxtəlif təsnifatları mövcuddur. Özəl kapitalın iştirakı ilə ortaqlıq formasının seçilməsi dövlətin, bələdiyyənin və ya əmlakı idarə edən və sifariş verərkən sifarişçi kimi çıxış edən orqanın qarşıya qoyduğu məqsədlərdən asılıdır. Konkret layihələrdə dövlət-özəl əməkdaşlığı formasını müəyyən edən əsas amillər bunlardır: milli qanunvericiliyin xüsusiyyətləri; investisiya riskinin bölüşdürülməsi sxemləri; əməkdaşlıq üçün zəruri olan müqavilə münasibətlərinin təşkili; layihənin və ya fəaliyyət növünün sənaye mənsubiyyəti; obyekt xidmətləri üçün ödəyicilərin müəyyən edilməsi. Dövlət-özəl əməkdaşlıq modelləri aşağıdakı xüsusiyyətlərə malik spesifik layihədir: dövlət sektoru adətən müqavilə əsasında nəzarət etdiyi torpaq, əmlak və ya obyektləri özəl şəxsə (ödənişlə və ya ödənişsiz) verir; özəl sektor obyekti tikir və ya təmir edir; dövlət sektoru obyektin saxlanması vəzifələrini həvalə edir; özəl sektor müəyyən müddət ərzində dövlət obyektlərindən istifadə etməklə müəyyən xidmətlər göstərir; özəl investor müqavilənin sonunda obyekti (ödənişli və ya ödənişsiz) dövlət mülkiyyətinə verməyi öhdəsinə götürür [3, s.265].

Qeyd edək ki, dövlət-özəl əməkdaşlıq layihəsinin səmərəliliyi qiymətləndirilməlidir ki, bu da səlahiyyətli orqan tərəfindən müəyyən meyarlar əsasında reallaşdırılmalıdır: maliyyə səmərəliliyi; strateji planlaşdırma sənədlərində müəyyən edilmiş məqsəd və vəzifələr nəzərə alınmaqla hesablanmış dövlət-özəl əməkdaşlıq layihəsinin həyata keçirilməsindən sosial-iqtisadi effekt. Nəzəri mənada dövlət-özəl əməkdaşlıq hamıya - dövlətə, biznesə, cəmiyyətə sərfəlidir və belə əməkdaşlığa marağı onunla əlaqədardır ki, o, ilk növbədə, onun fəaliyyətinin səmərəliliyini artırmağın mümkün olacağı ümidi ilə əmlakını investisiya qoymaq və saxlamaq üçün çəkilən xərclər yükünü özəl tərəfin üzərinə qoyur [4, s. 104]. İkincisi, dövlət-özəl əməkdaşlıq vasitəsilə dövlət iqtisadi idarəetmənin səmərəsiz formalarından imtina edir, özəl şirkətlərin daha səmərəli yerinə yetirdiyi bir sıra iqtisadi funksiyalardan (tikinti, istismar, təmir və s.) azad olur. Üçüncüsü, dövlət dövlət-özəl əməkdaşlıq yolu ilə sosial-iqtisadi problemlərin ağırlığını qismən yüngülləşdirir. Dövlət-özəl əməkdaşlığı layihəsinin effektivliyinin qiymətləndirilməsi onun müqayisəli üstünlüyünü müəyyən etməzdən əvvəl aparılır. Fəaliyyətin qiymətləndirilməsi çərçivəsində aşağıdakılar müəyyənləşdirilir: 1) layihənin maliyyə səmərəliliyi; 2) müvafiq strateji planlaşdırma sənədlərində müəyyən edilmiş məqsəd və vəzifələr nəzərə alınmaqla hesablanmış layihənin reallaşdırılmasının sosial-iqtisadi effekti [5, s.114].

Hesab edirik ki, ölkədə dövlət-özəl əməkdaşlığının formalaşdırılması prosesi ali və orta-ixtisas peşə təhsili sistemindən başlamalıdır. Habelə, dövlət özəl bizneslə əməkdaşlıq sahəsində tənzimləmə fəaliyyətini üç əsas istiqamət üzrə təşkil edir. Birincisi, o, bütövlükdə cəmiyyət və dövlət orqanları ilə işgüzar əlaqələrin fəaliyyət göstərdiyi strategiya və prinsiplər hazırlayır. İkincisi, əməkdaşlıq layihələrinin inkişafı və reallaşdırılması üçün institusional mühiti formalaşdırır. Üçüncüsü, o, birbaşa dövlət-özəl əməkdaşlığının təşkili və idarə edilməsində iştirak edir, forma və metodları, habelə onun spesifik mexanizmlərini hazırlayır.

Azərbaycanda dövlət-özəl əməkdaşlığı layihələrini idarə edən, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, biznes tərəfdaşlarının seçilməsi, konsaltinq və digər funksiyaları reallaşdıran Dövlət-Biznes Əməkdaşlığının İnkişafı Mərkəzinin yaradılması önəmli rol oynaya bilər. Həmin mərkəzin məqsədi dövlət və biznes resurslarının, dövlət-özəl əməkdaşlığı sahəsində ekspertlərin birləşdirilməsi yolu ilə dövlət infrastrukturunun inkişafına və onun idarə edilməsinə investisiya cəlb etmək olmalıdır [6]. Azərbaycanda dövlət-özəl əməkdaşlığı mexanizmi daim təkmilləşdirilməlidir ki, qabaqcıl texnologiyalardan istifadə edərək iqtisadiyyatın və idarəetmə sistemlərinin inkişafı üçün zəmin yaradılsın. Bu əməkdaşlıq mexanizmindən kənd təsərrüfatında, xüsusilə də orqanik kənd təsərrüfatında istifadəsi müsbət nəticələr verə bilər.

Fikrimizcə, orqanik kənd təsərrüfatı ətraf mühitin, iqlimin mühafizəsi, əhalinin sağlamlığının təmin edilməsi məqsədlərinə nail olmaqda önəmli rol oynayır və aqrar-sənaye kompleksinin davamlı inkişafı üçün ən perspektivli sahələrdən biridir. Bu əkinçilik üsulu kiçik müəssisələrin rəqabət qabiliyyətinin artmasına kömək edir, ixrac potensialına və əhəmiyyətli inkişaf perspektivlərinə malikdir. Orqanik kənd təsərrüfatı məhsul və mal-qara yetişdirmək üçün təbii üsul və texnologiyalardan istifadəyə üstünlük verən kənd təsərrüfatı sistemidir. İstehlakçılar ənənəvi kənd təsərrüfatı üsullarının ətraf mühitə və sağlamlığa təsirləri haqqında getdikcə daha çox xəbərdar olduqları üçün orqanik kənd təsərrüfatı son illərdə populyarlıq qazanır. Orqanik kənd təsərrüfatı ekoloji və sosial davamlılığa üstünlük verərək qida istehsal etməyi hədəfləyən kənd təsərrüfatı sistemidir. Orqanik kənd təsərrüfatı hərəkatı XX əsrin əvvəllərində adi kənd təsərrüfatının torpağın deqradasiyası, suyun çirklənməsi və biomüxtəlifliyin itirilməsi kimi mənfi təsirlərinə cavab olaraq ortaya çıxdı. 1972-ci ildə Versalda Beynəlxalq Orqanik Kənd Təsərrüfatı Hərəkatı Federasiyası yaradılmışdır ki, əsas məqsədi bütün dünya ölkələrində orqanik kənd təsərrüfatını tanıtmaqdır [7, s.93]. İstehlakçılar ənənəvi əkinçilik üsullarının ətraf mühitə və sağlamlığa təsirləri haqqında daha çox məlumatlı olduqları üçün orqanik əkinçiliyin populyarlığı son illərdə artmışdır. Daha çox insan orqanik məhsullara üstünlük verir. Orqanik kənd təsərrüfatı biomüxtəlifliyin qorunmasına, yerli bitki və heyvan növlərindən istifadəni təşviq etməyə və kənd təsərrüfatının təbii yaşayış mühitlərinə təsirini minimuma endirməyə üstünlük verir. Lakin orqanik məhsulların qiymətinin baha olması bəzi istehlakçıların onlara əlçatanlığı aşağı olur.

Orqanik kənd təsərrüfatının məhsullarını daha yüksək qiymətə almaq istəyən istehlakçılar kütləsinin olması həmin sahənin inkişafına təkan verə bilər. İstehlakçılar orqanik məhsulların adi məhsullardan üstünlüyünə əmin olduqda daha yüksək qiymətə həmin məhsulları almağa razılaşa bilərlər. İnkişaf etmiş ölkələrdə daha çox sağlamlığının qeydinə qalan istehlakçılar çox olmasına bağmayaraq, onlar da orqanik məhsulları münasib qiymətə almaqda maraqlıdırlar. Milli gəlirin əhali qrupları arasında bölüşdürülməsində ölkələr arasında fərqlilik olduğu kimi, orqanik kənd təsərrüfatının faydaları barədə məlumatlılıq səviyyəsi də fərqlidir [8, s.63]. Orqanik məhsulların üstünlüklərini nəzərə alaraq onların istehsalının stimullaşdırılması zəruridir ki, bunun üçün mühüm tədbirlər bunlardır: maliyyə dəstəyi (subsidiyalar, güzəştli kreditlər, qrantlar); vergi güzəştləri, orqanik məhsulların istehsalı zamanı yaranan risklərin sığortası; sərgilərin, yarmarkaların, müsabiqələrin təşkili; daxili bazarın inkişafı; məktəblərdə, uşaq bağçalarında, xəstəxanalarda, orduda və dövlət qurumlarında orqanik qidaların istehlakının təşviq edilməsi.

Məlumdur ki, orqanik kənd təsərrüfatı istehsalçıları dövlət dəstəyi olmadan fəaliyyətlərini inkişaf etdirə bilməzlər, çünki orqanik məhsulların əldə edilməsi böyük xərc tələb edir. Hazırda bütün kənd təsərrüfatı məhsulları istehsalçılarına şamil edilən dövlət dəstəyi tədbirlərindən orqanik məhsulların istehsalı ilə məşğul olan fermerlər də yararlana bilər [9, s. 26]. Bununla belə, orqanik kənd təsərrüfatının özünəməxsus xüsusiyyətləri var ki, bu da xüsusi dövlət dəstəyi tədbirlərinin formalaşdırılmasını tələb edir. İlk öncə, ona diqqət yetirmək lazımdır ki, ənənəvi kənd təsərrüfatından orqanik kənd təsərrüfatına keçid həmişə kənd təsərrüfatı istehsalçılarının toxumların, üzvi gübrələrin, bitkilərin bioloji mühafizə vasitələrinin, aqreqatlarının alınması ilə bağlı xərclərinin əhəmiyyətli dərəcədə artmasına səbəb olur. Belə ki, meyvə yetişdirilməsi üçün orqanik istehsal texnologiyalarının tətbiqi ilə bağlı maliyyə xərcləri çoxdur və habelə orqanik istehsala keçid zamanı bir çox əməliyyatların əl ilə yerinə yetirilməli olması səbəbindən işçilərin əmək haqqının dəyəri əhəmiyyətli dərəcədə artır. Bu baxımdan, orqanik kənd təsərrüfatı istehsalına keçmək qərarına gələn fermerlərə aşağı faizli kreditlərin və vergi güzəştlərinin verilməsi yolu ilə dövlət dəstəyinə ehtiyac var, xüsusən də ölkəmizdə orqanik kənd təsərrüfatının inkişafında böyük kənd təsərrüfatı istehsalçıları ilə müqayisədə ilkin olaraq qeyri-bərabər maliyyə vəziyyətində olan kiçik biznes formalarına böyük diqqət yetirilməlidir.

Orqanik kənd təsərrüfatına dövlət dəstəyinin məcburi tədbiri orqanik məhsulların istehsalının sertifikatlaşdırılması xərclərinin bir hissəsinin kompensasiya edilməsi olmalıdır. Fikrimizcə, orqanik məhsulların sertifikatlaşdırılması xərclərinə görə kompensasiya faizinin və kompensasiyanın maksimum (maksimum) məbləğinin müəy-

yənləşdirilməsi məqsədəuyğundur. Kənd təsərrüfatı məhsulları istehsalçıları üçün orqanik məhsulların saxlanması üçün yerlərin və anbarların təmiri və ya modernləşdirilməsi, yaxud əhəmiyyətli maliyyə xərcləri tələb edən yeni bina və tikililərin tikintisi zərurəti yarandıqda, cari fəaliyyət üçün aşağı faizli kreditlər böyük önəm daşıyır. Orqanik məhsul istehsalçılarının kooperativlərinin yaradılmasına və fəaliyyətinə dəstək bütün maraqlı tərəflər üçün (tədarük zəncirinin bütün üzvləri üçün - istehsalçılar, istehlakçılar, emalçılar, pərakəndə satış şəbəkələri, iri kənd təsərrüfatı birlikləri) müsbət təsir əldə etməyə yönəlmişdir.

**Müasir dövrdə Azərbaycanda orqanik kənd təsərrüfatında dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsi istiqamətləri**

Orqanik kənd təsərrüfatı əsasən ilkin istehsal səviyyəsində müəyyən müsbət dinamika nümayiş etdirir, orqanik emal isə az inkişaf edir və üstəlik, daha az tənzimlənir. Beləliklə, innovativ emal üsullarına, orqanik qablaşdırmaya və bütün orqanik tədarük zəncirində keyfiyyət və təhlükəsizliyə investisiyalar yeni dəyər yaratmaq və istehlakçılar üçün orqanik məhsulların dəyərini artırmağa imkan verir. Eyni istiqamətdə, bütün texnoloji zəncir boyunca orqanik qida məhsullarının təşviqi üçün vaxtın minimuma endirilməsi, orqanik məhsulların logistikasının rasionallaşdırılmasını tələb edir və ucqar ərazilərdə yerləşən kiçik istehsalçılara bazar tapmaq və əlavə məhsullardan faydalanmaq imkanı verir.

Ümumiyyətlə, konkret istehsala dövlət dəstəyi alətləri toplusu geniş və müxtəlif ola bilər, o cümlədən texnoloji, konsaltinq, maliyyə yardımı, habelə istehsalçılara xüsusi bilik və lazımi təcrübə əldə etməkdə köməklik. Araşdırmalardan görünür ki, orqanik təsərrüfatının inkişafında dövlət dəstəyi önəmli rol oynayır. Orqanik məhsulların istehsalı və ixracı üzrə lider olan xarici ölkələrdə bu məhsulların istehsalçılarına dəstək üçün dövlət siyasəti tədbirləri, bir qayda olaraq, kənd təsərrüfatı sektorunun inkişafı üzrə daha ümumi strategiyanın tərkib hissəsidir. Bu baxımdan, kənd təsərrüfatının inkişafı və kənd təsərrüfatı məhsulları, xammal və ərzaq bazarlarının tənzimlənməsi üzrə Dövlət Proqramı çərçivəsində orqanik istehsalın inkişafı üçün ayrıca istiqamətin (altproqramın) formalaşdırılması zəruridir. Bu alt proqramda xüsusi dövlət dəstəyi tədbirlərinin birləşdirilməsi orqanik kənd təsərrüfatının inkişafı üçün uzunmüddətli vektorun formalaşmasına kömək edəcək və onun inkişafına yönəlmiş tədbirlərin səmərəliliyini artıracaq. Lakin orqanik kənd təsərrüfatının inkişafında təkcə dövlət dəstəyinə arxalanmaq olmaz, dövlət-özəl əməkdaşlığının üstünlüklərindən də faydalanmaq lazımdır.

Orqanik kənd təsərrüfatı sahəsində istehsal və bazar proseslərinin tənzimlənməsinin təşkilati, hüquqi və iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi zəruridir. Dövlət tənzimlənməsinin təşkilati-hüquqi mexanizmi mövcud qanunvericiliyə əsaslanan birbaşa təsir mexanizmidir. Dövlət tənzimlənməsinin iqtisadi mexanizmi qarşılıqlı iqtisadi maraqların reallaşdırılmasını təmin etmək və orqanik məhsullar istehsalına keçidi stimullaşdırmaq məqsədilə sahibkarlıq subyektlərinin fəaliyyətinə təsir üsulları və vasitələrinin qarşılıqlı əlaqəsidir [10, s.61]. Orqanik kənd təsərrüfatı məhsullarının istehsalı həmin sahənin investisiya cəlbediciliyindən asılıdır. İnvestisiya cəlbediciliyi kimi dövlət-özəl əməkdaşlıq imkanlarından maksimum faydalanmaq səmərəli ola bilər.

Azərbaycanda Kənd Təsərrüfatı Kredit və İnkişaf Agentliyinin kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştli şərtlərlə kreditlərin verilməsində banklarla kredit təşkilatları arasında əməkdaşlığı ölkəmizdə dövlət-özəl əməkdaşlığının uğurlu nümunəsidir. Həmin agentliyin vəsaitləri hesabına müvəkkil kredit təşkilatları vasitəsilə bir çox fermerlərə mikrokreditlər verilir [11, s.176]. 2021-ci ildə həmin agentlikdə 30398 təsərrüfat, 29666 fermer, 29566 fizik şəxs və 100 fizik şəxs qeydiyyatdan keçmişdir. Sahibkarlığa İnkişaf Fondu da kənd təsərrüfatı sektoruna güzəştli şərtlərlə kreditlərin verilməsində xüsusi rol oynamışdır. 2023-cü ildə həmin fond tərəfindən sahibkarlıq subyektlərinə verilən kreditlərin həcmi 193,7 milyon AZN təşkil edib ki, bunun da 90,0 milyon AZN-i və ya 46,5%-i kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan sahibkarlıq subyektlərinə verilib.

Orqanik kənd təsərrüfatının inkişafını təmin etmək məqsədilə dövlət-özəl əməkdaşlığından istifadənin vacibliyi BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) tərəfindən də qeyd edilir və onu əmək məhsuldarlığının artırılması və

orqanik kənd təsərrüfatı sektorunda artımın stimullaşdırılması, bütün dünyada ərzaq istehsalının artırılması mexanizmi hesab edir. İnfrastruktur layihələrində, təhsildə və tibbdə geniş yayılan dövlət-özəl əməkdaşlıq mexanizminin kənd təsərrüfatında tətbiqinisbətən yeni təcrübədir və aqrar-sənaye kompleksinin modernləşdirilməsinə kömək edə bilər və nəticədə təkcə kənd təsərrüfatı istehsalçılarının özlərinə və dövlətə deyil, habelə cəmiyyətə fayda gətirə bilər. FAO aqrobiznesin inkişafı sahəsində dövlət-özəl əməkdaşlıq layihələrinin 4 növünü müəyyənləşdirmişdir: kənd təsərrüfatında dəyər zəncirlərinin inkişafı üzrə tərəfdaşlıq, burada daxili və xarici bazarlara çıxışı təmin etmək üçün xüsusi dəyər zəncirlərinin, o cümlədən zəncirin özünün sertifikatlaşdırma yolu ilə inkişaf etdirilməsini nəzərdə tutulur; birgə kənd təsərrüfatı tədqiqatları, innovasiyalar və texnologiya transferi üzrə tərəfdaşlıq, o cümlədən, məhsuldarlığın və bazara çıxışın artırılmasına yönəlmiş innovativ texnologiyaların kommersiyalaşdırılması, təcrübənin ötürülməsi, o cümlədən yüksək texnologiyalı kənd təsərrüfatı müəssisələri əsasında gənclərin təlimi üçün yaradılmışdır; ticarət mərkəzlərinin, malların saxlanması üçün anbarların, kənd təsərrüfatı məhsulları üçün logistika sistemlərinin, aqroparkların inkişafına yönəlmiş bazar infrastrukturunun tikintisi və modernləşdirilməsi üzrə tərəfdaşlıq; fermerlərə və kiçik müəssisələrə biznesin inkişafı xidmətlərinin ötürülməsi üzrə tərəfdaşlıq, o cümlədən bazar informasiya sistemlərinin inkişafı, kənd təsərrüfatı dilerləri üçün menecment üzrə təlimlər, kiçik və orta kənd təsərrüfatı təşkilatları üçün biznesin inkişafı xidmətlərinin subsidiyalaşdırılması və s.

Orqanik kənd təsərrüfatının, o cümlədən ixracyönümlü sektorun inkişafı üçün mövcud ehtiyaclara əsaslanaraq, dövlət-özəl əməkdaşlıq layihələri aşağıdakı istiqamətlərdə reallaşdırıla bilər: istehsal müəssisələrinin modernləşdirilməsi; istixana kompleksinin və onunla əlaqədar nəqliyyat, logistika və enerji infrastrukturunun inkişafı; orqanik kənd təsərrüfatı məhsullarının istehsalı üçün potensialın inkişafı; yerli toxumçuluğun və kənd təsərrüfatı biotexnologiyalarının inkişafı; ixtisaslı kadrların hazırlanması. Bu sahələrin və layihələrin inkişafı orqanik kənd təsərrüfatının rentabelliyini yaxşılaşdıracaq, həmin sahə istehsalçılarının (fermerlər də daxil olmaqla) daxili və xarici istehlaka yönəlmiş milli kənd təsərrüfatı istehsalının ümumi sistemində iştirakını stimullaşdıracaq. Öz növbəsində, dövlət-özəl əməkdaşlıq əsasında orqanik kənd təsərrüfatının və ərzaq istehsalının kompleks inkişafı ölkənin kənd təsərrüfatı və ərzaq məhsullarının xarici bazarlara tədarükü üçün ixrac potensialının artırılmasına kömək edəcəkdir.

**Nəticə**

Beləliklə, orqanik kənd təsərrüfatında dövlət-özəl əməkdaşlıq layihələrinin inkişafı üçün əhəmiyyətli potensiala malik əsas sahələri fərqləndirmək olar:

- bitkiçilik və heyvandarlıq sahələrində orqanik məhsulların istehsalı və beynəlxalq bazara “Made in Azerbaijan” brendi ilə çıxış;
- keyfiyyətli ərzaq məhsullarına daxili tələbatın ödənilməsi üçün kənd təsərrüfatı istehsalının artırılması;
- ixtisaslaşmış istixana təsərrüfatlarının inkişafı;
- istehsal olunan məhsulların saxlanması və emalı üçün zəruri infrastrukturun yenidən qurulması və tikintisi;
- istehsal olunan məhsulların daxili bazarda son istehlakçıya çatdırılması, xarici bazarlara çıxışın asanlaşdırılması üçün müvafiq logistika sxemlərinin hazırlanması;
- toxumçuluğun inkişafı, kompleks gübrələrin, bitki mühafizə vasitələrinin istehsalı və s. üçün infrastruktur layihələri;
- təhsil sahəsində, o cümlədən elmi nəticələrin təcrübədə tətbiqinə, müasir texnologiyalar və idarəetmə metodlarına dair məlumatlara çıxış yolu ilə kənd təsərrüfatı istehsalı iştirakçılarının təhsil səviyyəsinin artırılmasına, gənclərin kənd təsərrüfatı müəssisələrində işləməyə cəlb edilməsinə yönəlmiş layihələr və s.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Əliyev, Ş.T. İlham Əliyevin kənd təsərrüfatı sahəsindəki islahatları real nəticələr verir. / İlham Əliyev-10 il hakimiyyətdə. Elmi-praktiki konfransın materialları. Bakı, “Şərq-Qərb” Nəşriyyat Evi, 2013, s.141-156.
2. Алиев Ш. Т. Экономика Азербайджана. Сумгайыт, 2018 – 376 с.
3. Савинцева, С. А. Государственно-частное партнерство: причины возникновения и направления развития / С.А. Савинцева, Л.С.

Сагдеева // Вестник Академии знаний. – 2018. – № 24(1). – С. 260-26.

4. Алиев, Ш.Т. Важнейшие детерминанты устойчивого развития экономики Азербайджана. Книга. Баку, «Элм», 2010. - 196 с.

5. Аюпова, Г. Р. Анализ этапов реализации проектов государственно-частного партнерства в регионе / Г. Р. Аюпова // Теория права и межгосударственных отношений. – 2021. – Т. 1. – № 5(17). – С. 110-118.

6. “Azərbaycan Respublikasında Dövlət-Biznes Əməkdaşlığı İmkanları" mövzusunda tədqiqat yazısı. http://edf.az/uploads/documents/dovlet-biznes_emekdashliq.pdf.

7. Тамаева, А.М. Развитие органического сельского хозяйства / А.М. Тамаева // Наука и образование: Сборник научных статей / Научный редактор Е.С. Астахова. – Москва : Издательство "Перо", 2018. – С. 93-95.

8. Eynalov, H., Quliyev, Y. Aksoy, U., Boz, İ. Azərbaycanda orqanik kənd təsərrüfatı: Hazırkı durum və gələcək inkişaf potensialı. Bakı, 2018, 106 s.

9. Əliyev, Ş.T. Azərbaycanda kənd təsərrüfatinin və aqrar sənaye kompleksinin inkişafinin strateji aspektləri. //İpək Yolu jurnal, 2018, №2, S.23-32. https://au.edu.az/upload-files/menu/ipek-yolu/2018_2/3Aliyev_Sh.pdf.

10. Кундиус, В.А. Аграрная политика в сфере органического сельского хозяйства / В.А. Кундиус, О.Ю. Воронкова // Никоновские чтения. – 2015. – № 20-1. – С. 59-64.

11. Nağıbəyli, T.M. Azərbaycanda kənd təsərrüfatının inkişafı və dövlət-özəl əməkdaşlığı. Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 4 (34), s.174-177.

**Аллахвердев Эльнур Гара оглу**
Доцент Азербайджанского Университета Кооперации,
доктор философии по экономике,

## СОТРУДНИЧЕСТВО ГОСУДАРСТВЕННОГО И ЧАСТНОГО СЕКТОРОВ В ОРГАНИЧЕСКОМ СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ В АЗЕРБАЙДЖАНЕ

### Резюме

**Целью исследования** является изучение возможностей сотрудничества государственного и частного секторов в органическом сельском хозяйстве в Азербайджане. Изложены и систематизированы проблемы развития сельского хозяйства. Обоснована эффективность механизмов государственно-частного сотрудничества в формировании и развитии органического сельского хозяйства. В контексте глобальных вызовов разработаны предложения по сотрудничеству государственного и частного секторов в создании органической сельскохозяйственной структуры в Азербайджане.

**Метод исследования** включал использование ряда научных методов: анализа, синтеза, сравнения, прогнозирования и обобщения. При этом были учтены методологические стили и механизмы, основанные на исследованиях, проведенных по вопросам государственно-частного сотрудничества в сельском хозяйстве нашей страны.

**Результаты исследования** – полученные научные и практические результаты в контексте новых вызовов могут быть использованы для разработки механизма действий государственно-частного сотрудничества в создании модели органического сельского хозяйства в Азербайджане.

**Ключевые слова:** Азербайджан, органическое сельское хозяйство, сотрудничество государственного и частного секторов, проблемы развития сельского хозяйства, модель органического сельского хозяйства, перспективы развития сельского хозяйства.

**ALLAHVERDIEV Elnur Gara**
Assistant professor of Azerbaijan Cooperation University,
Doctor of Philosophy in Economics,

## PUBLIC-PRIVATE SECTOR COOPERATION IN ORGANIC AGRICULTURE IN AZERBAIJAN

**Summary**

**The purpose of the study** is to investigate the possibilities of public-private sector cooperation in organic agriculture in Azerbaijan. The problems of agricultural development are explained and systematized. The effectiveness of public-private sector mechanisms in the formation and development of organic agriculture is substantiated. Proposals are made on public-private sector cooperation in the creation of an organic agricultural structure in Azerbaijan in the context of global challenges.

**The research method** used a number of scientific methods: analysis, synthesis, comparison, forecasting and generalization. At the same time, the methodological styles and mechanisms substantiated in the research conducted on public-private sector cooperation in agriculture of our country were taken into account.

**The results of the study** - the scientific and practical results obtained in the context of new challenges can be used to develop an action mechanism for public-private sector cooperation in creating an organic agriculture model in Azerbaijan.

**Keywords**: Azerbaijan, organic agriculture, public-private sector cooperation, agricultural development problems, organic agriculture model, agricultural development prospects.